# MİLLİ MƏKAN MƏLUMATLARI SİSTEMİNİN ƏSASNAMƏSİ

Azərbaycan milli məkan məlumatları Azərbaycan Respublikası ərazisində müəyyən məkan, ərazi və coğrafi bölgə ilə birbaşa və ya dolayısı ilə əlaqəli olan istənilən məlumatdır. Milli Məkan Məlumatları sistemi məkan məlumatlarının toplanmasını, emalını, idarə edilməsini, inteqrasiyasını və xidmətlərin göstərilməsini təmin edən dövlət informasiya sistemidir. İstənilən coğrafi informasiya sistemi (CİS) kimi sistem, məkan və coğrafi məlumatların toplanması, idarə edilməsi və təhlili üçün, bu dəfə xüsusilə Azərbaycan üçün, bir çərçivədir.

Milli məkan məlumatlarının işlənib hazırlanması və inteqrasiyası qaydaları 29 dekabr 2018-ci il tarixindən etibarən İqtisadiyyat Nazirliyinə Milli Məkan Məlumatları sisteminin hazırlanması və Elektron Hökumət İnformasiya Sisteminə inteqrasiyasının tapşırıldığı vaxtdan qüvvəyə minmişdir. Nazirlər Kabinetinə eyni zamanda Milli Məkan Məlumatları sisteminin əsasnaməsinin layihəsini hazırlamaq tapşırılmışdır. Əsasnamə 10 yanvar 2025-ci ildə Respublika Prezidenti tərəfindən təsdiq edilmişdir.

Əsasnaməyə əsasən sistemin müəyyən edilmiş məqsədi rəqəmsal və rabitə texnologiyalardan istifadə yolu ilə dövlət orqanı, şirkət, və qurumların fəaliyyətinin, habelə digər fiziki və hüquqi şəxslərlə əlaqələrinin operativliyini, səmərəliliyini, şəffaflığını, eləcə də göstərilən xidmətlərin, sistemdə saxlanılan məlumatların sistemliliyini və əlçatanlığını təmin etməkdir.

Sistemin tətbiqi:

– milli məkan məlumatları üzrə texniki tələblər toplusunun, milli məkan məlumatlarının, metaməlumatların formalaşdırılması və inteqrasiyası,

– milli məkan məlumatlarının yaradılmasında təkrarçılığın aradan qaldırılması baxımından dövlət büdcəsindən milli məkan məlumatlarının yaradılmasına ayrılan pul vəsaitinin səmərəli idarə edilməsi,

– yaradılmış milli məkan məlumatlarına əlçatanlığın təmin edilməsi, və

– milli məkan məlumatları üzrə xidmətlərin real vaxt rejimində, keyfiyyətli və operativ göstərilməsi

hədəflərinə xidmət edir.

Əsasnamə, sistemdə açıqlana bilən məlumatları tənzimləyir. Məlumatların sahibləri Nazirlər Kabineti tərəfindən siyahıya alınan dövlət qurumlarıdır.

Sistemin bu altsistemləri mövcuddur:

(i) iştirakçıların təqdim etdiyi orijinal məlumatları vahid formata və struktura çevirən, informasiya sistemlərinə və ehtiyatlarına malik olmayan iştirakçıların milli məkan məlumatlarının sistemə daxil edilməsini təmin edən “inteqrasiya pəncərəsi” altsistemi;

(ii) iştirakçılar tərəfindən sistemə daxil edilən milli məkan məlumatlarının və metaməlumatların emalını, habelə onların bir-biri ilə əlaqəliliyini təmin edən “milli məkan məlumatlarının emalı” altsistemi;

(iii) iştirakçılar tərəfindən sistemə daxil edilən milli məkan məlumatlarının və metaməlumatların müəyyən edilmiş texniki tələblərə və ya məlumat modellərinə uyğunluğunu, aktuallığını yoxlayan, uyğun olmayan məlumatların düzəliş aparılaraq yenidən təqdim edilməsi üçün geri göndərilməsini təmin edən "milli məkan məlumatlarının monitorinqi" altsistemi;

(iv) sistemin məlumat bazasında toplanılan milli məkan məlumatları əsasında yeni çoxməqsədli xəritələrin yaradılmasını təmin edən "rəqəmsal xəritə" altsistemi;

(v) sistemin məlumatları barədə statistik hesabatların alınmasını təmin edən "hesabatlılıq" altsistemi; və

(vi) iştirakçıların və istifadəçilərin sistemdən istifadəsini təmin edən "idarəetmə" altsistemi.

Milli Məkan Məlumatları sisteminə yalnız sistemin bəyan edilmiş məqsədi üçün fərdi məlumatlar daxil olacaq. Fərdi məlumatların sistemdə toplanılması, işlənilməsi və mühafizəsi *Fərdi Məlumatlar haqqında* Qanununa uyğun olaraq həyata keçirilir.

Qaydalarda sistemin sahibi, operatoru, iştirakçıları, və istifadəçilərinin hüquq və vəzifələri sadalanır. Sistemin sahibi və operatoru İqtisadiyyat Nazirliyidir.

İqtisadiyyat Nazirliyinə Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi ilə birlikdə Milli Məkan Məlumatları sistemini G-cloud-a inteqrasiya etmək tapşırılıb. Sistem, habelə onda toplanılan məlumatların ehtiyat nüsxələri G-cloud-da saxlanılır.

Sistemdə yaradılan, əldə edilən, toplanılan informasiya və elektron sənədlər Azərbaycan Respublikasının mülkiyyətidir. Sistemdə formalaşdırılan sənədlər *Elektron İmza və Elektron Sənəd haqqında* Qanun ilə müəyyən edilmiş tələblərə uyğun olaraq tərtib olunur və rəsmiləşdirilir.

* * *



**Ətraflı Məlumat üçün:** **ContactUs@Bureau28a.com**

Azərbaycan Respublikası AZ1095, Bakı Neftçilər Prospekti, Ev 67 www.bureau28a.com

*Məlumat hüquqi məsləhət təşkil etmir və bunun üçün nəzərdə tutulmur

©2025 "Bureau 28a" MMC